*Prezidentin izi ilə*

# Ağdam: tarixin, quruculuğun Zəfər salnaməsi*

## Ağdamda ilk dəfə elektromobillərin şarj cihazları istehsal olunacaq

Başqa bir istehsal müəssisəsi ilə tanış oluruq... Aldığımız məlumat çox qiymətlidir. Belə ki, Ağdam Sənaye Parkında ölkədə ilk dəfə elektromobillərin şarj cihazları istehsal olunacaq. Sənaye parkında fəaliyyət göstərən "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) elektrikpaylayıcı avadanlıqların, elektrikyuvalarının və beton yarımstansiyalarının istehsalı ilə məşğuldur. Müəssisədə Avropa və Türkiyənin qabaqcıl texnologiyasının tətbiqi ilə 35 kV, 10 kV-luq elektrikpaylayıcı qurğular, 0,4 kV-luq güc və idarəetmə panelləri, kondensator qurğuları və elektromobillərin şarj cihazları istehsal olunacaq. Bu barədə **"Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru Vüsal Mirzəyev** məlumat verərək bildirdi ki, sənaye parkının 1,7 hektar ərazisində yaradılan müəssisə iki fazadan ibarətdir. Ümumilikdə 3 milyon manat investisiya yatırılması nəzərdə tutulur.



Artıq birinci fazada işlər yekunlaşıb. Müəssisədə ildə 600 ədəd ortagərginlikli, 600 ədəd aşağıgərginlikli qurğu, 150 ədəd monoblok beton yarımstansiya və elektrik avtomobilləri üçün 140 ədəd şarjdoldurma avadanlığı istehsal ediləcək. Müəssisədə 70 nəfər işlə təmin olunacaq. İstehsal olunan məhsulların 60 faizinin yerli, 40 faizinin isə xarici bazarlarda satışı nəzərdə tutulur. "Eel Electric" MMC sənaye parklarında tətbiq edilmiş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 73 min manatdan çox vəsaitə qənaət edilib. Dünyada, o cümlədən ölkəmizdə elektriklə işləyən avtomobillərin sürətlə çoxaldığı bir vaxtda bu məhsula tələbin artacağı şübhə doğurmur.

Direktor onu da bildirdi ki, 2022-ci ilin noyabr ayında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınan "Eel Electric" MMC-nin müəssisəsində hazırda 25 nəfər işləyir. Onlardan 18 nəfəri Ağdam sakinidir. Gələcəkdə isə 70 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. Ağdam rayonunun Papravənd kəndindən olan **Anar Məhərrəmov** Bərdə Peşə Liseyində sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və istismarı ixtisası üzrə təhsil alıb. Ağdam şəhərində belə bir zavodun açıldığını eşidəndə müraciət edib və işlə təmin olunub:

- Hazırda elektrik quraşdırıcısı işləyirəm. Çalışıram ki, işimi layiqincə yerinə yetirim. Mən kəndimizdən 2 yaşım olanda çıxmışam. Ona görə də heç nəyi xatırlaya bilmirdim. Ancaq Ağdam, kəndimiz haqqında hər zaman evimizdə söhbət gedib. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Onların sayəsində torpaqlarımız işğaldan azad edildi. Neçə ildən sonra doğma yurdumuza qayıdıb burada işləmək hər birimiz üçün fəxrdir. Əməkhaqqımdan da razıyam, əsas odur ki, öz doğma rayonumuzda işləyirəm.



Başqa bir həmsöhbətim **Namiq Məmmədzadənin** valideynləri Ağdamın Ətyeməzli kəndinin sakinləridir. Onlar kənddən didərgin düşəndə Namiq hələ anadan olmamışdı. Kəndlərinin xarabalığı onda dərin kədər yaratsa da, Ağdam və ətraf kəndlərin tikintisi onda qürur doğurur. Namiq zavodda elektrik quraşdırıcısı köməkçisi işləyir. Namiq dedi:

- İndi Böyük Qayıdış başlayıb, keçmiş məcburi köçkünlər bu tarixi hadisəni illər uzunu gözləyiblər, ümidlərini heç zaman itirməyiblər, öz liderlərinə, Qalib Ali Baş Komandana ürəkdən inanıb və etibar ediblər. Prezident-xalq birliyi sarsılmaz xarakter alıb. Bir neçə il bundan əvvəl mənə desəydilər ki, sən Ağdamda işləyəcəksən, sözün düzü, buna inanmazdım. İnana bilmədiklərimiz indi həqiqətdir, yuxu deyil, həyatın özüdür, fəxr edirəm ki, Ağdamın qurulmasında az da olsa, mənim də əməyim olacaq. Bütün bunları bizə yaşadan cənab Prezidentimizin zavodun açılışında iştirak etməsi heç zaman unudulmayan hisslər yaratdı.



Zavodda çalışan **Azər Əsədov** Ağdam rayonunun Əfətli kəndindəndir. Bu ilin aprel ayından zavodda elektrik quraşdırıcı işləyir. Azər dedi ki, işimdən çox razıyam, burada bizə hər cür şərait yaradılıb, vaxtında da əməkhaqqımızı alırıq. Ağdam işğal olunanda mənim heç üç yaşım olmayıb, sevinirəm ki, Ağdamı gördüm, şəhərin yenidən tikilməsində mənim də zəhmətim var. İnanıram ki, Ağdam şəhəri çox gözəl və müasir olacaq. Dövlətimizin başçısının zavodun açılışında iştirak etməsi bizi daha da ruhlandırdı, söylə çalışırıq.

## Qarabağın sənaye mərkəzi

"Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodu ilə tanış oluruq. Zavodun illik istehsal gücü 5 min ədəd rabitə və işarəvermə, 250 ədəd mikroprosessor mərkəzləşmə sistemi avadanlığı həcmindədir. İstehsal olunan mallar daxili və xarici bazar üçün nəzərdə tutulub. Bu barədə avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı **zavodunun direktor müavini Əhmədiyyə Baxışov** məlumat verərək bildirdi ki, "Rail Trans Service" MMC 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Sənaye parkının 1,6 hektar ərazisində yaradılan avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun investisiya dəyəri 8,92 milyon manatdır. Burada əsasən Ağdam və ətraf rayonlardan olmaqla, 60 nəfər işlə təmin ediləcək. "Rail Trans Service" MMC sənaye parklarında tətbiq edilmiş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 70 min manata yaxın vəsaitə qənaət edilib.



Cənab Prezident İlham Əliyev sentyabrın 19-da Ağdam Sənaye Parkında görülən işlərlə tanış oldu, bizim zavodun açılışında iştirak etdi. Sənaye zonalarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastruktura - qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Onlar qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

"Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) divar kağızları istehsalı zavodu Ağdam Sənaye Parkında 1,6 hektar ərazidə yaradılıb. İnvestisiya həcmi 8 milyon manat olan müəssisə Azərbaycanda divar kağızları istehsal edən ilk zavoddur. **"Mister Decor" MMC-nin direktoru Əli Əliyev** dedi:



- İllik gücü 2,1 milyon ədəd rulon divar kağızının istehsalı olan müəssisədə 76 nəfərin işlə təmin edilməsi nəzərdə tutulub. Burada ən müasir texnologiyalardan istifadə edilir. Xammal Avropa ölkələrindən və Çindən idxal olunur. Dizaynlar İtaliya və Almaniyadan alınıb. Başqa dəzgahları isə Çin məhsuludur. Zavodda istehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə ixracı da planlaşdırılır. Hazırda Özbəkistan zavodun məhsulları ilə maraqlanır. Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə tikilən binalarda zavodda istehsal edilən divar kağızlarından istifadə edilir. "Mister Decor" MMC-yə 2022-ci ilin oktyabrında Ağdam Sənaye Parkının rezidenti statusu verilib. MMC sənaye parklarında tətbiq edilmiş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 400 min manatdan çox vəsaitə qənaət edib. Gözəl naxışlı divar kağızları Ağdamda və digər işğaldan azad edilmiş ərazilərdə inşa edilən evləri bəzəyəcək.



**Zavodun operatoru Səbuhi Əhmədli** ilə iş başında tanış oluruq. Böyük bir dəzgahı idarə edən Səbuhi dedi ki, bizim işimiz divar kağızlarına rəng vurmaqdan ibarətdir, çox incə və zövqlü işdir. Səbuhi Ağdam rayonunun Üçoğlan kəndindəndir. Ağdamda işlədiyi üçün çox qürurluyam deyən Səbuhi sənəti elə bu zavodda öyrənib.

Prezident İlham Əliyev Ağdam Sənaye Parkında, həmçinin "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodunun açılışında iştirak etdi. "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) 2022-ci ilin aprelində Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Bir hektar ərazidə yaradılan zavodda havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsal ediləcək. **"Metkons" MMC-nin baş direktoru Nicat Hacıyev** bildirdi ki, illik gücü 33 min ədəd müxtəlif avadanlıq istehsalı olan zavodda Türkiyə, İtaliya, Rusiya və Çin texnologiyaları tətbiq edilib.



Ümumi investisiya dəyəri 3, 9 milyon manat olan zavodda istehsal olunan məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. Zavodda 90 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. Digər istehsal müəssisələri kimi, "Metkons" MMC də sənaye parkında tətbiq edilmiş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bu günə qədər 91 min manatdan çox vəsaitə qənaət edib.

Ağdamda əhalinin məşğulluğu ilə bağlı heç bir problem olmayacaq. Ağdama köçəcək ailələrin üzvlərinin hansı peşələrə, ixtisaslara sahib olmaları barədə məlumatlar var. Bura köçən insanların bir hissəsi inşaat sektorunda çalışacaq. Əhalinin məşğulluğunun təmin edilməsində Ağdam Sənaye Parkında yaradılan müəssisələrin böyük rolu olacaq. Ağdam Sənaye Parkının rezidenti "Prof-DAM" MMC tərəfindən dam örtükləri zavodunun inşasına 2023-cü ilin 2-ci rübündən etibarən başlanılıb. İndiyədək görülmüş işlərə 4 milyon manat investisiya yatırılıb və işlərin 85 faizi yekunlaşıb. Hazırda zavodda metal dam örtükləri istehsalı üçün nəzərdə tutulmuş İtaliya, Finlandiya, Rusiya, Türkiyə, Çin istehsalı olan avadanlıqlar quraşdırılıb. "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) dam örtükləri istehsalı zavodu ildə 1,4 milyon kvadratmetr profilli təbəqələr, 1 milyon kvadratmetr metalkirəmit lövhələr, 1 milyon kvadratmetr sendviç panellər, habelə 2 min ton dam aksesuarı istehsalı gücünə malikdir. İstehsal olunan məhsulların 90 faizi yerli, 10 faizi isə xarici bazar üçün nəzərdə tutulub.



**"Prof-Dam" MMC-nin direktoru Arif Ataşov** bildirdi ki, "Prof-Dam" MMC 2022-ci ilin aprelində Ağdam Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. İki hektar ərazidə yaradılan zavodda məhsul buraxılışı İtaliya, Finlandiya, Türkiyə, Rusiya və Çin istehsalı olan soyuq metalşəkilləmə texnologiyalarının tətbiqi ilə həyata keçiriləcək. İnvestisiya dəyəri 8,5 milyon manat olan zavodda 40-dək iş yeri yaradılacaq. İşçilərin Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Ağdamda həm qürurverici, həm də qəribə ruh yaradan təzadlı bir mənzərə diqqət çəkir. Qədim şəhərin xarabalıqları arasında yeni binalar, Ağdam Cümə məscidinin restavrasiyadan sonrakı heyranedici gözəlliyi, payız çiçəklərinin ətri, yağışdan sonra ətrafa çökən saflıq, tikən, quran insanların qururu, digər tərəfdə isə uçuq divarlar, dağılmış yollar, kol-kos basmış küçələr. İndi burada mənfur düşmənin kirli caynaqlarının izini məhv etmək üçün böyük bir mübarizə başlayıb. Bir neçə il əvvəl düşmənin hərbi texnika daşıdığı yollarda indi tikinti materialları yüklənmiş maşınlar şütüyür, kranların qülləri sanki buludlara toxunur, bünövrədən yeni bir Ağdam şəhəri salınır. 30 ilə yaxın düşmənin yağmaladığı, dağıdaraq viran qoyduğu Ağdam modern şəhər üslubunda tikilir. Prezidentin tapşırığına uyğun olaraq, birləşdirilən kəndlərlə və əhalinin artımı da nəzərə alınaraq 100 min nəfər əhalinin yaşayacağı Ağdam şəhəri yenidən qurulur, tarixi abidələr bərpa edilir, modern infrastruktur yaradılır. Ağdam böyük bir tikinti meydançasına çevrilib və burada inşa edilən binalarda Şahbulaq daş karxanasında istehsal edilən ağ mişar daşlarından istifadə edilir. Yenidən tikilən hər bir yol, məktəb, iş yeri, mədəniyyət və dini abidə davamlı, dinc və firavan gələcəyə doğru atılan addımlardır. O, ilahi andan - tarixi qələbədən sonra ağdamlılar keçən hər günü şükranlıqla, minnətdarlıqla, sevgiylə qarşılayır və həsrətə, kədərə, ayrılığa son qoyulduğu üçün deyirlər ki, sözün əsl mənasında, arzuların qanadında uçuruq, yuxularımızda gördüyümüz şəhərimizə indi ayaq basırıq, düşmən Ağdamı nə qədər dağıtsa da, uçurtsa da, yandırsa da, onun quru torpağına qurban olaq, bizə bu sevinci yaşadan Qalib Ali Baş Komandan İlham Əliyevə minnətdarlığımızı bildirir, şəhidlərimizin qarşısında baş əyirik, qazilərimizin alnından öpürük. Ağdamın tikilməsi bizə yeni həyat, yeni arzular, firavan yaşamaq eşqi bəxş edib. Ağdamda tarix və müasirlik qovuşur, ümid, inam bütövləşir, arzular qol-qanad açır, Cənubi Qafqazda analoqu olmayacaq sənaye mərkəzi günbəgün böyüyür, inkişaf edir.

(davamı növbəti saylarımızda)

**Salman ALIOĞLU,**
**"Respublika".**

*Bakı-Ağdam-Bakı.*












* *Əvvəli qəzetimizin 21 və 24 sentyabr tarixli saylarında dərc edilib.*







